# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 08 iyun 2018-ci il

## Azərbaycanda akademik qurum və ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş birgə layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən keçirilmiş "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (bundan sonra: "Elmin İnkişafı Fondu" adlandırılacaqdır) təşkil edərək keçirdiyi müxtəlif qrant müsabiqələrində Azərbaycan Milli Elmlər Akademiyasından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat institutlarından, dövlət qurumlarından, qeyri-hökumət təşkilatlarından, elm ilə əlaqəli digər qurumlardan alim və mütəxəssislər qrupu, həmçinin fərdi şəkildə alimlər (fiziki şəxslər) bərabər əsaslarla və şəffaflıq şəraitində iştirak edirlər. Bu qurumları təmsil edən alim və mütəxəssislərdən təşkil edilmiş müvəqqəti yaradıcı kollektivlərin təqdim etdikləri qrant layihələrinə isə müsabiqələr zamanı, bir qayda olaraq, üstünlük verilir.

Akademik və təhsil müəssisələri Elmin İnkişafı Fondunun qrant müsabiqələrində kifayət qədər fəal iştirak edirlər. 2010-2018-ci illərdə Elmin İnkişafı Fondu tərəfindən təşkil edilərək keçirilmiş 32 müxtəlif xarakterli müsabiqənin nəticələrinin statistik analizi göstərir ki, 565 qalib qrant layihəsinin 354-nün (ümumi sayın 62.65%-ni, onlara ayrılan maliyyə həcmi isə ümumi maliyyələşdirilmənin 72.52%-ni təşkil edir) rəhbərləri akademik qurumları, 155-nin (ümumi sayın 27.43%-ni, onlara ayrılan maliyyə həcmi isə ümumi maliyyələşdirilmənin 18.98%-ni təşkil edir) rəhbərləri isə 21 təhsil müəssisəsini (18 universitet, 2 təhsil akademiyası və 1 lisey olmaqla) təmsil edirlər. Adıçəkilən 565 layihə üzrə rəhbər və icraçıların ümumi sayının 66.57%-i (1685 nəfər) akademik, 21.97%-i (556 nəfər) isə ali təhsil qurumlarına aiddir. Təhsil müəssisələri üzrə bu rəqəmlərin dinamikasında nəzərəçarpacaq

artım hiss olunur. Elmin İnkişafı Fondu tərəfindən ötən illərdə keçirilmiş "Universitet qrantı" müsabiqəsinin nəticələri də kifayət qədər effektiv olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, elmi tədqiqatların qrantlar yolu ilə maliyyələşdirilməsinin effektivliyi nəzərə alınmaqla, ölkənin akademik qurumları və ali təhsil müəssisələrində aparılan təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və innovasiya xarakterli, əhəmiyyətli elmi araşdırma və tədqiqatların daha da yüksək səviyyədə və koordinasiya olunmuş şəkildə dəstəklənməsinə, elmi fəaliyyətin stimullaşdırılması və alimlərə əlavə yaradıcılıq imkanı yaradılmasına yönəlmiş layihələrin qrantlar yolu ilə, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış və akademik və ali təhsil qurumlarından olan alimlərin yaradıcı kollektivlər şəklində maliyyələşdirilməsi məqsədi ilə, Fondun Himayədarlar Şurası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə razılaşdırmaqla, elmi prioritetlərə uyğun olaraq keçirdiyi məqsədli "Elm-Təhsil İnteqrasiyası" müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu birinci "Elm-Təhsil İnteqrasiyası" qrant müsabiqəsinin keçirilməsi haqqında qərarını 2016-cı il 28 dekabr tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmişdir. Qrant layihələri 2017-ci il 05 yanvar – 28 fevral tarixləri arasında müsabiqəyə daxil olmuşdur. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 8 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. "Elm-Təhsil İnteqrasiyası" qrant müsabiqəsi akademik və ali təhsil sistemindəki elmi-tədqiqat müəssisələri, institut va laboratoriyaları, bölmə və mərkəzləri və digər uyğun strukturların elmi fəaliyyətini stimullaşdırmaq, modern elmi cihaz, avadanlıq və qurğularla təminatını təkmilləşdirmək, elmin ayrıca götürülmüş sahə və istiqamətlərinin davamlı inkişafını əlavə olaraq dəstəkləmək, kadr hazırlığını təmin etmək üçün akademik və ali təhsil qurumlarından olan alimlərin müvəqqəti yaradılmış elmi-yaradıcı kollektivləri tərəfindən təqdim edilmiş fundamental və tətbiqi xarakterli layihələrin müxtəlif maliyyə həcmli qrantlar (hər layihə üçün 100 min manatadək) verilməsi yolu ilə maliyyələşdirilməsi məqsədi ilə keçirilmişdir. Bu tip layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsində əsas məqsəd müxtəlif elm sahələrində yerinə yetirilən elmi-tədqiqat işlərinin (xüsusi olaraq, multidissiplinar araşdırmaların) dəstəklənməsi, qısa müddət ərzində rəqabət apara biləcək elmi nəticələrin alınmasına əlavə şərait yaradılmasıdır.
3. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə Azərbaycan tərəfindən 138 layihə daxil olmuşdur. Layihələr müsabiqəyə əsasən ənənəvi qaydada, həmçinin Elmin İnkişafı Fondunun yaratdığı innovativ texnologiya olan "e-QRANT" = "Qrant layihələrinin

Elektron İdarəolunması Sistemi" vasitəsilə də təqdim edilmişdir.

4. Layihələrin texniki ekspertizası işi təşkil olunmuş, müsabiqə qaydaları və tələblərinə cavab verməyən 4 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 134 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır. Elmi ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil elmi ekspertlər cəlb olunmuşlar. Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi müsabiqənin keçirilməsinə təşkilati dəstək göstərmişdir.
5. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, beynəlxalq "peer-review" və "merit review" meyarları ilə qiymətləndirmə aparmış, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər və arayışlar hazırlamışdır.
6. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı və statistik məlumatların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurası tərəfindən baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və yekun qərar qəbul edilmişdir.
7. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilmiş, multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş, tətbiqi xarakterli, ən müxtəlif akademik və təhsil qurumlarından olan alim və mütəxəssislər tərəfindən yerinə yetirilməsi planlaşdırılan eyni tədqiqat mövzuları üzrə təqdim olunmuş, beynəlxalq əməkdaşlıq çərçivəsində yerinə yetirilməsi planlaşdırılan, gənclərin və regionlardan olan alim və mütəxəssislərin iştirak etdiyi layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük verilmişdir.
8. "Elm-Təhsil İnteqrasiyası" qrant müsabiqəsi çərçivəsində 69 **fundamental-tətbiqi xarakterli və 2 xüsusi qalib layihə** müəyyənləşdirilmiş (siyahı əlavə olunur) və Elmin İnkişafı Fondunun müvafiq Qərarı ilə təsdiq olunmuşdur. Uğur dərəcəsi (daxil olan və qalib olan layihələrin sayı üzrə) kifayət qədər yüksək - 51.45% olmuşdur.  Fizika-riyaziyyat və texnika elmləri üzrə 21, kimya elmləri üzrə 11, Yer haqqında elmlər üzrə 9, biologiya, tibb və aqrar elmləri üzrə 11, humanitar və ictimai elmlər üzrə isə 17 layihə qalib olmuşdur. Layihələrin maliyyələşdirilmə həcmi 25- 95 min manat arasında dəyişir.
9. Cari müsabiqə üzrə Azərbaycan tərəfi üçün ümumi maliyyələşdirilmə həcmi 4 milyon 090 min manat olmuşdur.
10. 70 layihənin icra müddəti 1 il, 1 layihənin icra müddəti isə 2 ildir. Layihələr akademik və ali təhsil müəssisəsindən olan 2 rəhbərlə (əsas rəhbər və həm-rəhbər) təmsil olunur və müsabiqədə iştirak edən müvəqqəti yaradıcı kollektivin formalaşdırılmasında akademik və təhsil qurumlarında olan alimlərin sayında paritet gözlənilmişdir.  Rəhbər və həm-

rəhbərlər sırasında 109 nəfər kişi, 31 nəfər isə qadın vardır.

11. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə qalib layihələrin rəhbərləri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq **müqavilə** bağlanılacaq, qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcək və maliyyələşdirilmə həyata keçiriləcəkdir.
12. Elmin İnkişafı Fondu "Elm-Təhsil İnteqrasiyası" qrant müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı:
*info@elmfondu.az*
**Elmin İnkişafı Fondunun icraçı direksiyası**